# Milli Məclisə yeni seçkilərin keçirilməsi islahatların sistemliliyini təmin edəcək



**Prezident İlham Əliyev tərəfindən sosial-iqtisadi sahələrdə, habelə dövlət idarəetməsində islahatlarının reallaşdırılmasında əsas məqsəd dövlət müstəqilliyinin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, həmçinin yerli, regional və qlobal çağırışlara daha operativ cavab verilməsidir. Prezident Administrasiyasının və Nazirlər Kabinetinin yeni strukturu təsdiqlənib, mərkəzi icra hakimiyyəti orqanlarında isə struktur islahatları aparılır, yerli icra hakimiyyəti qurumları qarşısında yeni tələblər qoyulub.**

İcra və məhkəmə sahələrində yeniləşmə bu gün qanunverici orqanda gerçəkləşdirilən islahatlarla davam etdirilir. Bu isə keçiriləcək növbədənkənar seçkilər nəticəsində yeni parlamentin islahatlar kursuna daha sistemli dəstək olacağından, dövlət idarəetməsində ictimai nəzarəti və vətəndaş iştirakçılığını daha da gücləndirəcəyindən xəbər verir. Eyni zamanda, qanunverici orqanda islahatlar yeni deputatlar korpusunun formalaşdırılması ilə yanaşı, institusional təkmilləşdirmələr üçün imkanları da şərtləndirəcək. Bütün bunlarla bərabər, sözügedən sahədə islahatlar, həm də qanunverici hakimiyyətin məsuliyyətini daha da artıracaq.

Burada bir məqamı da qetd etməyi vacib bilirəm. Milli Məclis cəmiyyətin yeni çağırışlarının hakimiyyətdə yeni təmsilçilər vasitəsilə çatdırmaq üçün uyğun bir platformadır. Bu orqanın yeni tərkibi cəmiyyətin islahata köklənən hazırkı əhval-ruhiyyəsini daha dolğun ifadə edə bilər. Ona görə də, fikrimcə, növbədənkənar seçkilər imkan verəcək ki, Azərbaycan vətəndaşı məhz hazırki qayğı və maraqlarını səs verəcəyi namizədlər üzərindən qanunverici hakimiyyətə çatdırsın.

Bir sözlə, qanunverici orqanda reallaşdırılan islahatlar bundan sonra aparılacaq iqtisadi və sosial islahatların sistemliliyini və dayanıqlılığını təmin edəcək, ölkənin davamlı inkişafını sürətləndirəcək, eyni zamanda, idarəetmənin səmərəliliyini artıracaq.

Parlamentin buraxılması, növbədənkənar parlament seçkilərinin keçirilməsi Azərbaycanda islahatlar konsepsiyasının əhatə dairəsinin genişləndirilməsi zərurətindən irəli gəlir. Söhbət belə halda ölkəmizin sürətli inkişafı üçün daha əlverişli, hərtərəfli şərait yaradılmasından, cəmiyyətin isə bu islahatdan faydalanmasından, rifahının daha da yaxşılaşması üçün əlverişli imkanlar əldə olunmasından gedir.

Sonda xatırladım ki, dünən Prezident İlham Əliyev Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin buraxılması və parlamentə növbədənkənar seçkilərin 2020-ci il fevralın 9-na təyin edilməsi barədə sərəncam imzalayıb.

***Hüseyn İBRAHİMOV,***
***AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru***

Xalq qəzeti.- 2019.- 6 dekabr. S. 7.